**Salyanda “Yaşıl Park” restoranında keçirilmiş yoxlamaya dair məlumat**

**(20 noyabr 2025)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Salyan şəhəri, A.Həsənov küçəsində fəaliyyət göstərən, fiziki şəxs Əliyeva Fidan Fəxrəddin qızına məxsus “Yaşıl Park” restoranında yoxlama keçirib.

Baxış zamanı ictimai iaşə obyektində temperaturun monitorinqinin aparılmadığı, istifadə olunan suyun filtrdən keçirilmədiyi, havalandırma sisteminin qurulmadığı, müvafiq təmizlik işlərinin görülmədiyi, mətbəxdə tavanın, döşəmənin, divarların və işçi masaların asan yuyulabilən, dezinfeksiyaya davamlı materialla üzlənmədiyi, çirkli suların axıdılması üçün drenaj sisteminin quraşdırılmadığı, obliqat qrupuna daxil olan işçilərin tibbi müayinədən keçmədiyi və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı fiziki şəxs barəsində inzibati protokol tərtib olunub, nöqsanlar aradan qaldırılanadək mətbəxdə işlərin görülməsi və xidmətlərin göstərilməsi məhdudlaşdırılıb.